# Şəhid ailəsi üçün ev

**Masallı rayonunun Yeyənkənd kəndində Birinci Qarabağ Müharibəsi şəhidi Ərzuman Əlizamin oğlu İsmayılovun ailəsi üçün tikilmiş fərdi yaşayış evinin açılışı mərasimi olub.**





Mərasimdə rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov, hüquq-mühafizə, orqanları, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri, media və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

RİH başçısı Araz Əhmədov şəhid ailələrinin daim dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu qeyd edib. Və şəhid Ərzuman İsmayılovun anası Gülsüm Xəmmədovaya fərdi yaşayış evi ilə təmin olunması münasibətilə təbriklərini çatdırıb.

Gülsüm Xəmmədova şəhid adını daim uca tutan Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını ifadə edərək, evin tikintisində zəhməti olanların hər birinə təşəkkürünü bildirib.

Mərasimdə şəhid atası Qismət Məlikov, kənd ağsaqqalı Fəxrəddin Fərəcov, din xadimi Abuzər Axundov və başqaları çıxış edərək şəhid ailələrinə və digər imtiyazlı şəxslərə göstərilən qayğıdan razılıqlarını dilə gətiriblər.

Sonda mərasim iştirakçıları evdə yaradılmış şəraitlə tanış olublar.

*Ə.ƏLİYEV*
*XQ*